# *QULİYEV ELMAN.* TÜRK XALQLARI ƏDƏBİYYATI
Bakı, "Conatant Empary", 2011, 568 səh.




Türk xalqlarının ədəbiyyatının tədqiqi və tədrisi sovet dönəmində genişmiqyaslı olmasa da, müstəqillik illlərindən sonra bu tendensiya dəyişməyə başladı. Xüsusilə Türkiyə ədəbiyyatının, eləcə də türkdilli dövlətlərin ədəbiyyatının bir araya gətirilməsi, araşdırılması və tədrisi sahəsində çağdaş dövrümüzdə bir sıra mühüm işlər görülmüşdür. Keçən əsrdən başlayaraq türk xalqlarının ədəbiyyatı, türk dilləri ali məktəblərdə nizamlı bir şəkildə tədris olunur və getdikcə bu sahəyə maraq artmaqdadır. Haqqında söz açacağımız kitabın müəllifi professor Elman Quliyev ali məktəblər üçün ilk dəfə olaraq "Türk xalqları ədəbiyyatı" fənninin tədris proqramını işləyib hazırlamış, fənnin tədqiqi və tədrisi işlərində mühüm işlər görmüşdür. Çağdaş türkologiya üçün dəyərli bir töhfə olan professor Elman Quliyevin "Türk xalqları ədəbiyyatı" dərsliyi özündə bir sıra mühüm nəzəri və elmi mülahizələri əks etdirən qiymətli bir kitabdır. Qeyd edək ki, professor Elman Quliyev Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan və dünya ədəbiyyatı" kafedrasının professoru, "Türk araşdırmaları" elmi-tədqiqat mərkəzinin elmi rəhbəridir. Onun rəhbərliyi ilə türk xalqlarının ədəbiyyatı ilə bağlı çoxsaylı işlər görülmüş, elmi-tədqiqat işləri yazılmış və gənc alimlər yetişmişdir. Professor Elman Quliyevin "Türk xalqları ədəbiyyatı" dərsliyində türk dünyasının görkəmli ədəbi simaları haqqında məlumatlar verilir, onların əsərləri təhlil olunur, dövrün ictimai-siyasi prosesləri inikas olunur.

"Türk xalqları ədəbiyyatı" dərsliyi eyni adlı dərsliyin təkmilləşmiş şəklidir. Ayrı-ayrı illərdə professor Elman Quliyev türk xalqlarının ədəbiyyatı ilə bağlı kitablar ərsəyə gətirmişdir. "Türkiyə türk ədəbiyyatı" (Bakı, 2003), "Özbək ədəbiyyatı" (Bakı, 2009), "Türk xalqları ədəbiyyatı" (Bakı, 2009; 2011) və s. kitabların müəllifi olan professor Elman Quliyevin yeni "Türk xalqları ədəbiyyatı" dərsliyi öz elmi dəyəri və yeniliyi ilə seçilməkdədir. Qeyd edək ki, bu kitab Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28.04.2011-ci il 676 saylı əmri ilə dərslik kimi təsdiq olunmuşdur. "Elm və təhsil" nəşriyyatında 2017-ci ildə işıq üzü görmüş dərslik 632 səhifədən ibarətdir. Dərsliyin elmi redaktoru professor Himalay Qasımov, rəyçiləri isə akademik İsa Həbibbəyli, akademik Gövhər Baxşəliyeva, akademik Nizami Cəfərov, professor Qəzənfər Paşayev, professor Əsgər Rəsulov, professor Nizami Tağısoy kimi nəhəng ziyalılarımızdır. Belə ziyalı insanların kitaba rəy verməsi dərsliyin elmi sanbalından, dəyərindən xəbər verən mühüm nüansdır.

Professor Elman Quliyevin "Türk xalqları ədəbiyyatı" dərsliyi türk dastanları ilə başlamaqdadır. Qədim zamanlardan türklərin ilk dastan nümunələrindən başlayaraq, sonrakı dövrlərdə yaranan dastan örnəkləri burada bir araya gətirilmiş, təhlil edilərək dövrə və mövzuya görə qruplaşdırılmışdır. Burada "Dünyanın yaradılması haqqında" dastan, "Boz qurd", "Ərgənəkon", "Alp ər Tonqa", "Şu", "Oğuz Kağan", "Bilqamıs", "Kitabi-Dədə Qorqud", "Manas" və digər dastanlar haq-

qında məlumat verilmiş, dastanların bədii xüsusiyyətləri, mövzusu, yaranma tarixi və s. haqda geniş fikir sərgilənmişdir. Dərslikdə professor Elman Quliyev qədim türk dastanlarını islamiyyətdən öncəki və islamiyyətdən sonrakı olmaqla iki yerə ayırmışdır. Qədim türk dastanlarının yaranması, formalaşdığı dövr, coğrafi arealı, tiplogiyası haqqında məlumat verilməklə yanaşı, dastanların nəzəri-estetik qayəsi də açıqlanmışdır.

Professor Elman Quliyev kitabının sənətkarlar hissəsində ilk olaraq türk dünyasının görkəmli nümayəndəsi, ilk türkoloqu Mahmud Kaşqarlının həyat və yaradıcılığına yer vermişdir. Mahmud Kaşqarlının yaşadığı dövr, coğrafi ərazi haqqında məlumat verilməklə yanaşı, onun həyat və yaradıcılığı haqqında da məlumat əks olunmuşdur. Ədibin yaradıcılığından danışılarkən, sözsüz ki, Mahmud Kaşqarlının "Divani lüğət-it türk" əsərinə geniş yer verilmişdir. Əsərin yazılması, bədii və elmi dəyəri, əhatə etdiyi məsələlər barədə söz açan professor Elman Quliyev "Divani lüğət-it türk" əsərinin elm aləminə necə məlum olması, əsərin necə aşkar olunması haqda da bilgi verməyi unutmamışdır.

Dərsliyin sonrakı hissəsində orta yüzilliklərdə Şərq ədəbiyyatında geniş yayılmış təsəvvüf cərəyanı haqqında məlumat verilmiş, cərəyanın özünəməxsus xüsusiyyətləri, türk xalqları ədəbiyyatına təsiri barədə fikirlər bildirilmişdir. İslam dünyasında geniş miqyasda yayılmış, ezoterik və fəlsəfi cərəyan olan təsəvvüf cərəyanının yayılma səbəbi, ədəbiyyata təsiri və s. məqamlar burada öz əksini tapan məsələlər sırasındadır.

Professor Elman Quliyev dərslikdə ümumtürk yazılı ədəbiyyatına yer ayırmış, barəsində məlumat verməklə yanaşı, bu mövqedə qərarlaşan Yusif Balasaqunlu və Əhməd Yəsəvi kimi görkəmli ümumtürk ədəbiyyatının nümayəndələrinin həyat və yaradıcılığını təhlil süzgəcindən keçirmişdir. Hər iki sənətkarın dövrü, həyat və yaradıcılığı haqqında məlumat verilməklə bərabər, onların yaradıcılığının ümumtürk ədəbiyyatı üçün dəyəri əsaslandırılmışdır.

Dərsliyin sonrakı qismi artıq türkdilli dövlətlərə görə təsnif olunur. Bu baxımdan sonrakı hissə "Türkiyə türk ədəbiyyatı" başlığı ilə adlanır. Burada professor Elman Quliyev "Tarixə müxtəsər baxış" başlığı altında keçmişdən çağdaş dövrədək Türkiyə ədəbiyyatını tədqiq etmişdir. Cəlaləddin Rumi, Sultan Vələd, Yunis Əmrə kimi böyük türk mütəfəkkirlərinin həyat və yaradıcılığına yer verildikdən sonra Türkiyə ədəbiyyatı üçün mühüm və yeni bir mərhələ sayılan XIX-XX əsrlər Türkiyə ədəbiyyatı haqqında geniş məlumat verilir. Məlumdur ki, Türkiyə Cümhuriyyətinin XIX-XX əsrlər ədəbi dövrü bir sıra cərəyanların, yeniliklərin yaşandığı dövrdür. Müəllif burada Tənzimat dövründən başlayaraq, xronoloji ardıcıllıqla Sərvəti-fünun, Fəcri-ati kimi mühüm ədəbi cərəyanların özünəməxsus xüsusiyyətlərini açıqlamışdır. Müəllif burada İbrahim Şinasi, Əbdülhəmid Ziya Paşa, Namiq Kamal, Əbdülhəq Hamid Tarxan, Tofiq Fikrət, Mehmet Akif Ərsoy, Ziya Göyalp, Ömər Seyfəddin, Yəhya Kamal Bayatlı, Rəşad Nuri Güntəkin, Nazim Hikmət kimi görkəmli türk ədiblərinin həyat və yaradıcılığı haqqında məlumat verir, araşdırmalarını ortaya qoyur. Qeyd edək ki, Türkiyə ədəbiyyatı ilə müfəssəl tanış olmaq üçün bu qismi oxumaq hər bir oxucuya kifayət edər.

Dərsliyin sonrakı hissəsi türk xalqlarının görkəmli nümayəndələrindən olan özbək xalqının ədəbiyyatına həsr olunmuşdur. Bu hissədə müəllif görkəmli özbək ədibi və mütəfəkkiri Əlişir Nəvaidən başlayaraq çağdaş özbək şairi Erkin Vahidova qədər görkəmli özbək şair və yazarları haqqında məlumat vermişdir. Həmzə Niyazi, Abdulla Qədiri, Çolpan, Qafur Qulam, Musa Aybək, Uyğun, Maqsud Şeyxzadə, Həmid Alimcan, Zülfiyyə, Şərəf Rəşidov kimi nəhəng özbək ədəbi simaları haqqında məlumat verilməklə yanaşı, onların əsərləri, əsərlərin yazılma səbəbi, özbək ədəbiyyatındakı mövqeyi, bədii çəkisi haqda məlumat verilir, müxtəlif obrazlar təhlil olunur.

Dərsliyin digər hissəsi türkmən xalqının ədəbiyyatına həsr olunmuşdur. Dövlətməmməd Azadi və Məxtumqulu Fəraqi kimi görkəmli türkmən şairləri haqqında məlumat verilən bu hissədə professor Elman Quliyev bu şairlərin türkmən ədəbiyyatındakı mövqeyi, sonrakı dövr ədəbiyyatına təsiri haqda da fikir sərgiləmişdir.

Qazax ədəbiyyatına həsr olunan qisimdə görkəmli qazax ədibləri Abay Kunanbayev və Oljas Süleymenov haqqında məlumat verilir, onların qazax ədəbiyyatına gətirdikləri yeniliklər, əsərlərinin bədii-estetik dəyəri və s. məsələlər təhlil obyektinə çevrilir. Qazax ədəbiyyatı üçün yeni bir mərhələ sayılan Abay Kunanbayevin şəxsiyyəti, daxili-mənəvi dünyası, eləcə də Oljas Süleymenovun yaradıcılıq dünyası kitabda öz əksini tapan məsələlər sırasındadır.

Tatar ədəbiyyatına ayrılan hissədə tatar ədəbiyyatının görkəmli nümayəndələrindən İsmayıl Qaspiralı, Cengiz Dağcı, Musa Cəlil haqqında məlumat verilir, onların tatar ədəbiyyatındakı mövqeyi müəyyənləşdirilir. Xüsusilə İsmayıl bəy Qaspiralının bütün türk dünyası üçün mühüm xidmət və məziyyətləri göstərilir, ədibin "Dildə, işdə, fikirdə birlik" ideyasının mahiyyəti açıqlanır. Təkcə tatar ədəbiyyatı üçün deyil, ümumilikdə bütün Turan dünyası üçün dəyərli şəxsiyyət olan İsmayıl bəy Qaspiralının həyat və yaradıcılığı da dərslikdə tədqiq edilən məsələlər sırasındadır.

Dərsliyin sonrakı hissəsi qırğız ədəbiyyatına ayrılmış, qırğız ədəbiyyatının görkəmli nümayəndəsi Çingiz Aytmatovun həyat və yaradıcılığına həsr olunmuşdur. Burada görkəmli qırğız yazarının həyat və yaradıcılığı əks olunmaqla yanaşı, türk ədəbiyyatındakı mövqeyi müəyyənləşdirilmişdir.

Sonrakı hissədə isə İraq-türkman ədəbiyyatına yer verilmişdir. Professor Elman Quliyev burada İraq-türkman ədəbiyyatının xüsusiyyətləri haqda məlumat verməklə bərabər, Əbdüllətif Bəndəroğlu, Nəsrin Ərbil, Salah Növrəs, Mehmet Mehdi Bayat kimi nümayəndələri haqda məlumat verir, İraq-türkman ədəbiyyatının zənginləşməsindəki rolundan söz açır.

Dərsliyin son hissəsində türk epos, şeir və nəsr nümunələri verilmişdir. Kitab istifadə edilmiş ədəbiyyat siyahısı ilə yekunlaşmışdır.

Haqqında söz açdığımız dərslik ali məktəblərdə təhsil alan tələbələr, magistrantlar, doktorantlar üçün çox dəyərli bir mənbədir. Eləcə də türk xalqlarının ədəbiyyatı ilə yaxından tanış olmaq istəyən istənilən bir oxucu üçün qiymətli bir elmi kitabdır.

Professor Elman Quliyev cəfakeş türkoloq olmaqla yanaşı, Şərq dünyasının təəssübünü çəkən şəxslər sırasındadır. Belə ki, onun müəllifi olduğu ikicildlik "Şərq xalqları ədəbiyyatı" antologiyası 2011-ci ildə işıq üzü görmüşdür. Professor Elman Quliyev həm də şəhriyarşünas alimdir. Böyük Məhəmmədhüseyn Şəhriyar haqqında çoxsaylı araşdırmalar aparan professor Elman Quliyev, bununla yanaşı, Söhrab Tahir, Mirzə İbrahimov kimi görkəmli sənətkarlar haqqında da dəyərli tədqiqlər ərsəyə gətirmişdir.

Professor Elman Quliyev bu gün də öz tədqiqlərini davam etdirməkdə və türkologiya sahəsində araşdırmalar aparmaqdadır. Mən də öz növbəmdə böyük türkoloq, ziyalı insan, professor Elman Quliyevə can sağlığı və yeni elmi uğurlar arzulayıram.

*Ofelya Babayeva**

* Azərbaycan Dillər Universiteti, Azərbaycan dilçiliyi kafedrası, filologiya üzrə fəlsəfə doktoru.
E-mail: ofelyababayeva83@gmail.com